40 (1346) 10-16 oktyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PREZİDENT İLHAM ƏLİYEV MOSKVADA “ROSSİYA-1” TELEVİZİYA KANALINA MÜSAHİBƏ VERİB




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Moskvada “Rossiya-1” televiziya kanalına müsahibə verib.

*Müsahibəni təqdim edirik.*

**Müxbir:** Siz bu günlərdə Amerikanın Azərbaycana qarşı sanksiyaları ilə bağlı çox açıq danışdınız. Məlum olduğu kimi, indi Rusiya minlərlə sanksiyanın təzyiqi altında yaşayır. Sizcə, sanksiyalar siyasətinin prinsipcə hər hansı perspektivləri varmı?

**Prezident İlham Əliyev:** Onun, ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə. Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik.

Bizə sanksiyalar 1992-ci ildə, Azərbaycan ərazilərinin Ermənistanın işğalı altında olduğu bir vaxtda ölkəmizin “Ermənistanı blokadada saxlaması” barədə qondarma ittihamla tətbiq edilmişdi. Bu sanksiyalar 2001-ci ildə, ABŞ-ın öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxt aradan qaldırılmışdı. Partiya mənsubiyyətindən asılı olmayaraq, Birləşmiş Ştatların Prezidenti ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyaları öz qərarı ilə ləğv edirdi. Bundan sonra bizə qarşı həmin sanksiyalar yenidən tətbiq olundu. Mən onları nankorluqda ittiham edəndə, hesab edirəm ki, bu, həmin kontekstdə istifadə olunacaq ən sərt söz deyil.

## HADRUTUN ERMƏNİSTAN İŞĞALINDAN AZAD EDİLMƏSİNDƏN DÖRD İL ÖTÜR

Prezident İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunmasının dördüncü ili münasibətilə sosial şəbəkə hesablarında video paylaşıb.

Paylaşımda “Zəfər tariximiz - Hadrutun Ermənistan işğalından azad edilməsindən dörd il ötür” sözləri yer alıb.

## “200-Ə YAXIN ÖLKƏNİN COP29-UN BAKIDA KEÇİRİLMƏSİ HAQQINDA YEKDİL QƏRARI BÜTÜN DÜNYA İCTİMAİYYƏTİNİN AZƏRBAYCANA HÖRMƏTİNİN ƏLAMƏTİDİR”



Bu sözləri Prezident İlham Əliyev Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışında söyləyib.

Dövlətimizin başçısı, həmçinin qeyd edib: *“Bir aydan sonra Bakı ən böyük beynəlxalq tədbirə - COP29 iqlim konfransına ev sahibliyi edəcək. Biz 200-ə yaxın ölkənin bu konfransın Bakıda keçirilməsi haqqında yekdil qərarını bütün dünya ictimaiyyətinin Azərbaycana hörmət əlaməti kimi qiymətləndiririk”.*

## “BELARUSUN TƏCRÜBƏSİ III MDB OYUNLARININ KEÇİRİLMƏSİNDƏ BİZİM ÜÇÜN ÇOX FAYDALI OLACAQ”

Bu sözləri Prezident İlham Əliyev Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışında deyib.

*“Növbəti ildə Azərbaycanda III MDB Oyunları keçiriləcək. Gəncə şəhəri idman paytaxtına çevriləcək. Yarışlar, həmçinin Azərbaycanın 10-dan çox şəhərində olacaq. Fürsətdən istifadə edərək, Belarusu II MDB Oyunlarının uğurla keçirilməsi münasibətilə təbrik etmək istərdim. Belaruslu dostlarımızın və qardaşlarımızın təcrübəsi bu mühüm idman tədbirinə hazırlıq və onun keçirilməsində bizim üçün çox faydalı olacaq”*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## “BİZİM 9 MAYDA ÜMUMİ QƏLƏBƏMİZ MDB-YƏ ÜZV DÖVLƏTLƏRİN GƏLƏCƏK ƏMƏKDAŞLIĞININ MÜHÜM AMİLİDİR”

Bunu Prezident İlham Əliyev Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışında deyib.

Dövlətimizin başçısı, həmçinin bildirib: *“Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verməyə davam edəcək”.*

## “LAÇIN ŞƏHƏRİ 2025-Cİ İLDƏ MDB-NİN MƏDƏNİYYƏT PAYTAXTI OLACAQ”

Bunu Rusiya Prezidenti Vladimir Putin Moskvada keçirilən MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında deyib.

*“Biz hər il Birliyin mədəniyyət paytaxtını seçirik və o, bütün ölkələrimizin vətəndaşlarının böyük marağına səbəb olan parlaq, yaradıcı və humanitar tədbirlərin mərkəzinə çevrilir. Hazırda mədəniyyət paytaxtı Səmərqənddir. Təklif olunan qərar layihəsinə uyğun olaraq gələn il estafeti Azərbaycanın Laçın şəhəri qəbul edəcək”*, – V.Putin bildirib.

## “AZƏRBAYCAN İLƏ RUSİYA ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN DİNAMİKASI KİFAYƏT QƏDƏR NƏZƏRƏ ÇARPIR”

“Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin dinamikası Prezident Vladimir Putinin Bakıya dövlət səfərindən sonra kifayət qədər nəzərə çarpır”.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə görüşdə bildirib.

Dövlətimizin başçısı qeyd edib: *“Sizin dövlət səfərinizdən sonra ikitərəfli münasibətlərimizin dinamikası kifayət qədər nəzərə çarpır. Müxtəlif strukturların nümayəndələri səviyyəsində avqust ayında Bakıda əldə olunmuş razılaşmaların tamamlanması çərçivəsində hökumət üzvləri arasında artıq çoxlu təmaslar olub”.*



## “RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA MÜNASİBƏTLƏR MÜSBƏT İNKİŞAF EDİR”

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Prezident İlham Əliyevlə görüşdə bildirib.

Rusiya Prezidenti vurğulayıb: *“Dərhal qeyd etmək istərdim ki, münasibətlər müsbət inkişaf edir, biz bunu hələ Azərbaycana səfər zamanı bildirmişdik: əmtəə dövriyyəsi 4 dəfədən çox – 4,3 milyard dollardır, bizim Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarımız dörd milyard dollardan çoxdur, energetika sahəsində də, infrastrukturun inkişafı üzrə də çoxlu yaxşı, maraqlı layihələr var”.*

## Londonda “COP29: İqlim dəyişikliyi, sülh və təhlükəsizlik” mövzusunda dəyirmi masa keçirilib

Londonda Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Böyük Britaniyanın Kral Birləşmiş Müdafiə Araşdırmaları İnstitutunun (RUSI) birgə təşkilatçılığı və Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin dəstəyi ilə “COP29: İqlim dəyişikliyi, sülh və təhlükəsizlik” mövzusunda dəyirmi masa keçirilib. Tədbirdə hər iki ölkədən yüksək səviyyəli qonaqlar, region üzrə ekspertlər, dövlət və özəl sektorun nümayəndələri iştirak edib.

Tədbirdə açılış nitqi ilə çıxış edən COP26-nın prezidenti Alok Şarma Azərbaycanda keçiriləcək COP29-un başəriyyətin gələcəyi üçün əhəmiyyətindən danışıb.

COP29-da əldə olunacaq nailiyyətlərin tək Azərbaycanın deyil bütün dünyanın uğuru olacağını vurğulayıb. A.Şarma COP29-un müəyyən edilmiş prezidenti və onun komandası ilə sıx təmasda olduğunu, onların bu mötəbər tədbirin uğurlu təşkili üçün yorulmadan çalışdıqlarını diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, COP29 Sədrliyinin danışıqlar qrupunun müşaviri Elşad İskəndərov qarşıdan gələn sammitin regional və qlobal nöqteyi-nəzərdən əhəmiyyətini vurğulayıb. Diplomat çıxışında iqlim dəyişikliyi və əhalinin yerdəyişməsi arasında birbaşa əlaqəyə toxunaraq ətraf mühitin deqradasiyasının əsas fəsadlarından birinin miqrasiya olacağına diqqət çəkib.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev COP29 təşəbbüsləri barədə çıxış edib. O, Azərbaycanın təbii yanacaqla zəngin ölkələrin yaşıl texnologiyalara keçidə daha çox töhfə verməsini nəzərdə tutan İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunu dəstəklədiyini bildirib.

# COP29 iştirakçıları üçün iaşə portalı istifadəyə verilib




Bu ilin 11-22 noyabr tarixlərində COP29 iqlim konfransında iştirak üçün müxtəlif ölkələrdən Bakıya səfər edəcək çoxsaylı qonaqların müsbət ziyarətçi təcrübəsi, o cümlədən qidalanma, qonaqlama, nəqliyyat və digər xidmətlərdən səmərəli istifadəsinin təmin edilməsi istiqamətində COP29 Azərbaycan Əməliyyat Şirkəti tərəfindən müvafiq işlər davam etdirilir. Belə ki, COP29 Azərbaycan ƏŞ tərəfindən konfrans məkanından iaşə xidmətlərinin təşkili üzrə portal istifadəyə verilib.

Konfrans müddətində tədbir məkanında fəaliyyət göstərəcək müxtəlif iaşə xidmətləri iştirakçıların rahatlığını təmin etmək məqsədilə vahid portal üzərində təqdim edilib. Ziyarətçilərin fərqli qidalanma mədəniyyəti və müxtəlif zövqləri nəzərə alınaraq portalda vegetarian, veqan, qlütensiz, südsüz və halal yeməklər də daxil olmaqla geniş menyu seçimi mövcuddur. Portal vasitəsilə Yaşıl və Mavi Zonaların iştirakçıları fərdi qidalanma sifarişləri ilə yanaşı, həmçinin öz qonaqları üçün çay və nahar fasilələri, qəlyanaltı təchizatı kimi xidmətləri sifariş etmək imkanından yararlana biləcəklər.

Qeyd edək ki, COP29 məkanında fəaliyyət göstərəcək hər növ iaşə xidmətləri dayanıqlılıq prinsipləri əsasında təşkil ediləcək.

# Naxçıvanda vergi daxilolmaları 30,6 faiz artıb



Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Abbas İsmayılov İqtisadiyyat Nazirliyinin 2024-cü ilin 9 ayında fəaliyyətinin nəticələri barədə hesabatı təqdim edib.

Hesabatda Naxçıvanda vergi sahəsində 2024-cü ilin 9 ayı üzrə göstəricilər də açıqlanıb. Qeyd edilib ki, şəffaflaşma məqsədilə Naxçıvan Muxtar Respublikasında 2023-cü il və 2024-cü ilin hesabat dövründə yumşaq keçid tətbiq edilib, vergi nəzarəti tədbirləri minimuma endirilib.

Yalnız cari ilin aprel ayından başlayaraq preventiv xarakter daşıyan vergi nəzarəti tədbirləri həyata keçirilib ki, aprel-sentyabr ayları ərzində nəzarət tədbirlərinin sayı aktiv vergi ödəyicilərinin cəmi 1 faizini təşkil edib.

2024-cü ilin 9 ayında ötən ilin eyni dövrü ilə müqayisədə Dövlət Vergi Xidmətinin xətti ilə vergi daxilolmaları 36,9 milyon manat və ya 30,6 faiz, məcburi dövlət sosial sığorta daxilolmaları 8,7 milyon manat və ya 8,2 faiz, işsizlik sığortası fonduna daxilolmalar 313,2 min manat və ya 11,1 faiz, icbari tibbi sığorta daxilolmaları 2,7 milyon manat və ya 14,9 faiz artıb.

Cari ilin 9 ayında faktiki vergi daxilolmaları 157,6 milyon manat təşkil edib ki, bu da müəyyən olunmuş proqnoz məbləğindən 27,8 milyon manat və ya 21,4 faiz çoxdur.

# "Marketlərdə satılan məhsulların üzərindəki halal işarəsinin heç bir hüquqi və texniki əsası yoxdur"




Bunu "Azərbaycan Standartlaşdırma İnstitutu"nun (AZSTANDART) Baş direktoru İlham Bayramov Bakıda keçirilən Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) deyib.

"Bu günə kimi əsas sertifikatlaşdırma predmeti ət və süd məhsulları olub. Bu gün marketlərdə halal adı ilə satılan ət və süd məhsullarının üzərindəki halal işarəsinin heç bir hüquqi və texniki əsası yoxdur. Məhsulların üzərinə halal işarəsi qoymaq demək deyil ki, bu məhsul İslam Ölkələrinin Standartlaşdırma və Metrologiya təşkilatının (SMIIC) standartlarına cavab verir. Bu, böyük bir prosedurdur. Bunun üçün müvafiq akkreditasiyadan keçmək lazımdır. Əgər kimsə hansısa bir ölkənin halal məhsullarının sertifikatlaşdırılması üzrə orqanını təmsil etmək adı ilə bunu həyata keçirirsə, bu, qanuna zidd bir fəaliyyətdir", - deyə o qeyd edib.

İ.Bayramov bildirib ki, mövcud qanunvericiliyə əsasən Azərbaycan ərazisində halal məhsulların və xidmətlərin sertifikatlaşdırması fəaliyyətinin həyata keçirilməsi üçün mütləq şəkildə Azərbaycan Akkreditasiya Mərkəzindən də akkreditasiya almaq tələb olunur.

# Halal sənayesi davamlı istehsal və istehlakın inkişafına kömək edir




Bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Dövlət-Özəl Tərəfdaşlığı və Potensialın Artırılması şöbəsinin rəhbəri Anar Yusifzadə Bakıda keçirilən Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) deyib.

O, müasir dünyanın istehsal və istehlak arasında tarazlıq problemi ilə üzləşdiyini qeyd edib: "*Biz istehlakın istehsalı üstələdiyi bir dövrdə yaşayırıq. Bu gün istehsal həcmləri artsa da, bir çox insan aclıqdan əziyyət çəkir. Buna baxmayaraq, istehlak səviyyəsi həddindən artıq yüksək olaraq qalır ki, bu da resursların tükənməsinə gətirib çıxarır. Biz resurslardan səmərəli istifadəyə üstünlük verməliyik, çünki bu, iqtisadi artım, ətraf mühitin qorunması və iqtisadi tarazlığın saxlanması üçün kritik əhəmiyyət kəsb edir*".

Qeyd edək ki, Bakıda keçirilən forum davamlı inkişaf və məsuliyyətli istehlakla bağlı qlobal çağırışlar kontekstində halal sənayesinin əhəmiyyətinə diqqət çəkir.

# "Bu gün halal investisiya alətləri ətrafında dialoqlar gücləndirilməlidir"



Bu sözləri Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev Bakıda keçirilən Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) deyib.

"*Böyük müsəlman dövlətləri ilə həmsərhəd olmaqla yanaşı, Azərbaycan Orta Asiyada yaşayan 70 milyon müsəlman ilə eyni kökə malikdir. Rusiya ərazisində yaşayan 30 milyona yaxın müsəlman xalqlarının daha çox Cənubi Qafqazda yerləşməsini nəzərə almaqla ölkəmizə bu gün halal təyinat nöqtəsi kimi baxıla bilər*", - M.Musayev bildirib.

O vurğulayıb ki, bu gün Azərbaycan məhsullarının islam və ərəb dünyasına tanıdılması uğurla həyata keçirilir: "Son olaraq Səudiyyə Ərəbistanında keçirilən birinci Məkkə Halal Forumunda Azərbaycan stendi maraqla qarşılandı və zənginliyi ilə seçildi. Bugünkü sərgini milli istehsalçılar tərəfindən maraqla qarşılanması şübhəsiz ki, sevindiricidir. Bu gün halal turizmə müsəlman səyahətçiləri cəlb etmək imkanları, onların mədəni və dini ehtiyaclarına cavab verən istiqamətlərin təşviqi ilə yanaşı İslam bankı, sükuk kimi istiqamətlərdə daxil olmaqla halal investisiya alətləri ətrafında dialoqlar gücləndirilməlidir".

## 9 ayda Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 12 milyard manatdan çox vergi daxil olub

Xidmətin yaydığı məlumatda bildirilir ki, qeyri-neft-qaz sektorundan daxilolmalar 8 milyard 417,5 milyon manat təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 991,7 milyon manat və ya 13,4 faiz artıb. Ödənilən vergilərin 70 faizi qeyri-neft-qaz sektorunun, 30 faizi isə neft-qaz sektorunun payına düşüb.

# Elektrik mühərrikli avtomobillər üçün enerji doldurucuları ilə bağlı güzəşt müddəti uzadılır

Elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışının əlavə dəyər vergisindən (ƏDV) azadolma müddəti daha 2 il uzadılır.

Bu barədə məsələ Milli Məclisin iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışının daha 2 il müddətinə uzadılması təklif edilir.

Hazırda elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı 2025-ci il yanvarın 1-dək ƏDV-dən azaddır.

Dəyişiklik səsverməyə çıxarılaraq qəbul edilib.




# "Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiyanın icrasına 2025-ci ildə başlanılacaq"



Bunu İqtisadiyyat Nazirliyinin tabeliyindəki IV Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) icraçı direktoru Fariz Cəfərov jurnalistlərə açıqlamasında bildirib.

Onun sözlərinə görə, sənəd artıq hazırdır və hökumətə təqdim edilmək üzrədir.

"*Strategiyada vətəndaş, cəmiyyət və biznes sektorunu əhatə edən 51 təşəbbüs nəzərdə tutulur. Bunların içərisində "Rəqəmsal Əkiz", "Generativ Süni İntellekt Sistemi"nin əsasında Azərbaycan dil korpusunun qurulması nəzərdə tutulur*", - deyə o qeyd edib.

F.Cəfərov hesab edir ki, rəqəmsal iqtisadiyyat üçün ehtiyac duyulan insan kapitalının hazırlanması və təkmilləşdirilməsi, innovasiyaların təşviqi və milli iqtisadiyyatda IV Sənaye İnqilabı texnologiyalarının, o cümlədən süni intellekt həllərinin tətbiqi imkanlarının genişləndirilməsi, idarəetmədə əməliyyat səmərəliliyinin daha da artırılması və rəqəmsal məhsullara əlçatanlığın asanlaşdırılması üçün zəruri imkanlar yaradılacaq.

Strategiyanın icrası çərçivəsində rəqəmsal iqtisadiyyat ekosisteminin vəziyyətinin dəyərləndirilməsi və davamlı inkişaf etdirilməsi məqsədilə araşdırma və təhlillər aparılacaq, bizneslərin rəqəmsallaşması və yeni bizneslərin formalaşması üçün əlverişli mühit yaradılacaq. Eyni zamanda, mövcud bizneslərin rəqəmsal transformasiya prosesinə dəstək göstəriləcək və rəqəmsal iqtisadiyyat sahəsində data əsaslı qərarvermə mühiti formalaşdırılacaq.

# "Azərbaycanda sahibkarların 21%-i bank xidmətlərindən istifadə etmirlər"

Bunu "İqtisadi Resursların Öyrənilməsi Mərkəzi" İctimai Birliyinin sədri Ruslan Atakişiyev Bakıda keçirilən Halal Biznes və Turizm Forumunda (AZHAB Forum) deyib.

"*Azərbaycanda 1 000 kiçik və orta sahibkar arasında keçirdiyimiz tədqiqatlarımıza əsasən, ölkədə sahibkarlıq subyektlərinin təxminən 62%-nin islam bankçılığı barədə məlumatı yoxdur və ya bu haqda informasiyaları doğru deyil. Sorğuda iştirak edənlərin 39%-i isə faizli kreditləri məcburiyyətdən götürdüklərini deyiblər*", - o qeyd edib.

Onun sözlərinə görə, bu gün dünyanın 135 ölkəsində islam maliyyəsi tətbiq olunur: "Lakin onların cəmi 57-si müsəlman ölkəsidir. İslam maliyyəsi hazırda dünyaya ildə 16%-lik inkişaf verir, çünki o, rəqabətqabiliyyətlidir. Məsələn, Malayziyada islam bankçılığından ən çox Çin vətəndaşları istifadə edirlər".

R.Atakişiyev vurğulayıb ki, Azərbaycanda islam bankçılığı fəaliyyət göstərərsə, bu, sektorun 3%-ni əhatə edə bilər: "*Bu, kiçik rəqəm deyil. Bu, 800 milyon manat ilə 1,2 milyard manat arasında məbləğ deməkdir. Türkiyədə islam maliyyəsi 40 ildən artıq fəaliyyət göstərsə də, 5%-lik göstəriciyə hələ yeni çatıb. Malayziyada isə bu göstərici 16%-dir. Bu, inkişaf edən maliyyə bazarı üçün böyük rəqəmlərdir. Odur ki, Azərbaycanda halal biznesin inkişafı üçün islam maliyyə məhsullarının tətbiqi mütləqdir*".

# Türk dövlətlərini birləşdirən güclü siyasi-iqtisadi platforma

***Türk Dövlətləri Təşkilatı yalnız üzv ölkələr arasında əlaqələrin genişlənməsində deyil, bütün Türk dünyasının qlobal nüfuzunun yüksəlməsində böyük rol oynayır*.**

Beynəlxalq təşkilatlara üzv olmaq və onların işində iştirak etmək bütün dövlətlər üçün mühüm əhəmiyyət kəsb edir. Çünki bu, beynəlxalq münasibətlər sisteminə inteqrasiya etmək və qlobal proseslərdə söz sahibi olmaqla yanaşı, nüfuz, imic və etimad məsələsidir.

Heç təsadüfi deyil ki, Azərbaycanın da xarici siyasətinin prioritet istiqamətlərindən biri beynəlxalq təşkilatlara üzv olmaq, onlarla fəal və səmərəli əməkdaşlıq etməkdir. Təcrübə də göstərir ki, bu siyasi-diplomatiya hələ torpaqlarımızın işğal altında olduğu illərdə Ermənistanın təcavüzkar siyasətini olduğu kimi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa, respublikamızın dünya birliyindəki mövqelərinin möhkəmləndirilməsinə və qlobal səviyyədə etibarlı tərəfdaş kimi tanınmasına yol açmışdır. Ölkə rəhbərliyi demək olar ki, üzvü olduğumuz və ya müşahidəçi qismində iştirak etdiyimiz bütün mötəbər tribunalardan milli maraq və mənafelərimizin qorunması naminə səmərəli şəkildə yararlanmışdır.




### Beynəlxalq təşkilatlarla əməkdaşlıq xarici siyasətin prioritetlərindən biri kimi

Ulu Öndər Heydər Əliyev xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsinə böyük diqqət yetirirdi. Məlum olduğu kimi, məhz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra geosiyasi vəziyyət dərindən təhlil edilməklə və mövcud reallıqlar nəzərə alınmaqla Azərbaycanın xarici siyasət kursunda ölkəmizin mənafelərinin qorunmasına, beynəlxalq imicinin çoxalmasına yönəlik əməli dəyişikliklər edildi. Yeni xarici siyasət xətti dərin elmi nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyası kimi respublikamızın milli maraqlarına xidmət edən beynəlxalq əməkdaşlığının formalaşması üçün əsaslar yaratdı. Qısa müddət ərzində dünyanın siyasi qütbləri, ABŞ, Rusiya və Avropa ölkələri ilə mehriban əməkdaşlığa əsaslanan əlaqələrin qurulması və möhkəmləndirilməsi Heydər Əliyev diplomatiyasının, düşünülmüş, əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin uğurları idi.

Elə həmin dövrdən etibarən Azərbaycanın xarici siyasət kursunda əsas yerlərdən birini beynəlxalq təşkilatlarla əməkdaşlıq məsələləri tutmağa başlamışdır. Respublikamız bütün mötəbər qurumların platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmiş, onların potensial imkanlarından istifadə etməklə problemin ədalətli həllinə çalışmışdır. Məsələn, 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin iclasında nitq söyləyən Heydər Əliyev bu tribunadan Azərbaycanın haqq səsini dünyaya çatdırmış, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan etmişdir. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, mövcud qlobal problemlərə dair Azərbaycanın prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır. Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak etmiş, çıxışında qlobalizasiya mövzusuna toxunmuş, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etmişdir.

Prezident İlham Əliyev də xarici siyasətdə beynəlxalq təşkilatlar səviyyəsində fəal işin aparılmasına, əlaqələrin çoxtərəfli inkişafına mühüm önəm verir. Təsadüfi deyil ki, ötən 21 ildə Azərbaycanın üzvü olduğu BMT, ATƏT, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi təşkilatlarla əlaqələri yüksələn xətlə inkişaf etmiş, onların tribunasından Ermənistanın işğalçı siması ifşa olunmuşdur.

2011-ci ilin oktyabrında BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə görə Azərbaycanın bu mötəbət təşkilatın Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ölkəmizin tarixinə böyük siyasi-diplomatik hadisə kimi yazılmışdır. Azərbaycan BMT TŞ-na üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirmişdir. İşğaldan əziyyət çəkən ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim gündəmdə saxlamışdır.

2019-2023-cü illərdə isə Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etmişdir. Dünyanın ikinci ən böyük təşkilatına sədrlik Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik və uzaqgörən siyasətin nəticəsi, respublikamıza olan yüksək beynəlxalq etimadın göstəricisi idi. Həmin vaxt Prezident İlham Əliyev bununla bağlı demişdir: ***«Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir»*.**

Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi ilə mükəmməl nümunələr yaratdı, xüsusən pandemiya dövründə beynəlxalq ictimaiyyəti bu qlobal bəla ilə mübarizədə səfərbər etdi. Eyni zamanda Azərbaycanın sədrliyi Qoşulmama Hərəkatının institusional inkişafı ilə əlamətdar oldu Bütövlükdə isə, Azərbaycan sədrliyi Qoşulmama Hərəkatının qlobal nüfuzunu və çəkisini artırdı.

Bunlarla yanaşı Azərbaycan üzv olmadığı NATO, Avropa İttifaqı, Şanxay Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, BRİKS kimi regional təşkilatlarla da fəal əməkdaşlıq edir. Ötən illərdə Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi bütün bu beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənmiş və möhkəmlənmişdir.

Dövlətimiz müxtəlif beynəlxalq platformalarda yalnız üzləşdiyimiz problemlərin deyil, eyni zamanda, qlobal miqyaslı problemlərin həllinə töhfə verməyə çalışır və bir çox hallarda buna nail olur. Azərbaycanın səyləri dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir və biz tez-tez bunun əməli şahidi oluruq.

### TDT 15 ildə böyük təşəkkül dövrü keçib, sürətlə təşkilatlanıb

Azərbaycan dost və tərəfdaş dövlətlərlə yalnız ikitərəfli deyil, həm də təşkilatlanma səviyyəsində çoxtərəfli əməkdaşlığı təşviq edən dövlətdir və bunun ən mükəmməl nümunəsi yaradılmasının 15-ci ili tamam olan Türk Dövlətləri Təşkilatıdır.

Çağdaş dövrümüzdə dünyanın bütün dövlətləri təhlükəsizlik, sabitlik və sosial-iqtisadi inkişafla bağlı çağırışlarla üzləşirlər. Bu baxımdan ortaq mədəni və mənəvi dəyərlərlə bir-birinə bağlı olan türk dövlətlərinin daha sıx əməkdaşlıq etmələri, həmrəy olmaları, beynəlxalq və regional məsələlərdə ortaq mövqedən çıxış etmələri qloballaşan və sürətlə dəyişən dünya nizamının tələbidir. Çünki bu, türk dövlətlərinin daha da möhkəmlənmələri, dünyada və regionda cərəyan edən siyasi-iqtisadi proseslərə təsir göstərə bilmələri, öz milli maraqlarını müdafiə etmələri baxmından olduqca vacibdir. 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türkdilli ölkələrin dövlət başçılarının IX Zirvə toplantısı zamanı imzalanmış Sazişə əsasən yaradılan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası məhz bu məqsədlərə xidmət edir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası kimi yaradılan təşkilat 2021-ci ildən Türk Dövlətləri Təşkilatı (TDT) adlanır.

Öncə onu qeyd edim ki, dünyada dövlətlərin milli identifiklik ətrafında təşkilatlanmasına dair müxtəlif nümunələr var. TDT də türk dövlətlərini ilk növbədə türkçülük məfkurəsi ətrafında birləşdirən təşkilatdır. Məhz bu prinsip üzərində formalaşan TDT hazırda Türk dünyasını birləşdirən və dünyaya tanıdan siyasi platformadır.

Naxçıvan Sazişinə əsasən türkdilli dövlətlər tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq, hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək, siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq, ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək təşkilat formatında əməkdaşlıq mexanizmini yaradıblar. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir. Türkdilli Dövlətlər Təşkilatı beynəlxalq sənədə görə beynəlxalq hökumətlərarası təşkilatdır. Yaranarkən 4 üzvü olan təşkilatın sıralarında hazırda Özbəkistan da daxil olmaqla 5 dövlət birləşir. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatın müşahidəçi üzvləridir.

TDT-nin əsas fəaliyyət məqsədləri və vəzifələri məhz Naxçıvan Sazişi ilə müəyyən edilir. Bunlar türk dövlətləri arasında qarşılıqlı dostluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, siyasi, ticari-iqtisadi, hüquq mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın edilməsi, elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarına uyğun olaraq qanunun aliliyi, səmərəli idarəçilik və əsas insan hüquq və azadlıqlarının təminatı üzrə məsələlərin müzakirəsi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və ölkələr arasında təmasların təşviqi və sairdir.

Təşkilat daimi fəaliyyət göstərən və BMT-nin standart və normalarına uyğun olaraq formalaşmış Katibliyə, nizamnaməyə uyğun yaradılmış rəhbər orqanlara – Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurasına malikdir. 2018-ci ildə Macarıstan Türk Şurasında müşahidəçi statusu alıb. Təşkilatın sammitləri də daxil olmaqla, onun müxtəlif tədbirlərində Türkmənistan da iştirak edir. Bütün bunlar qurumun
daha təşkilatlanaraq möhkəmlənməsində mühüm rol oynayıb.

Təşkilat 15 ildə mühüm təşəkkül dövrü keçib, sürətlə təşkilatlanıb. Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurası, Türk İnvestisiya Fondu kimi qurumların fəaliyyəti sayəsində üzv ölkələr arasında əlaqələr sürətlə genişlənib.

TDT beynəlxalq təşkilatlarla əməkdaşlığa böyük əhəmiyyət verir. Təşkilat artıq İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurmuşdur.

### Türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsində Azərbaycan müşüm rol oynayır

Azərbaycan TDT-nin yaradıldığı ölkə olaraq təşkilatın fəaliyyətində və türkdilli dövlətlər arasında əməkdaşlığın genişləndirilməsində aparıcı rol oynayır. Təsadüfi deyil ki, türk dövlətləri arasında əlaqələrin genişləndirilməsi, bütövlükdə türk toplumunun dünyanın siyasi səhnəsində mövqeyinin gücləndirilməsi Azərbaycanın reallaşmasına çalışdığı məsələlərdir. Ən yaxın tariximizdə baş vermiş siyasi hadisələr –2005-ci ildə Bakıdan Şimali Kipr Türk Cümhuriyyətinin paytaxtı Lefkoşaya birbaşa təyyarə reysinin təşkil olunması, 2007-ci ildə Bakıda Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları rəhbərlərinin I forumunun keçirilməsi, o cümlədən həmin il Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı ilk dəfə olaraq Türkiyədən kənarda, yəni Bakıda keçirilməsi, 2009-cu ildə Naxçıvanda Türkdilli Dövlətlərin Əməkaşlıq Şurasının yaradılması və digər bu kimi məsələlər ölkəmizin türk dünyasının birliyinə nə qədər həssas yanaşmasının bariz nümunələridir.

Azərbaycan həyata keçirdiyi iqtisadi layihələrlə həm türk dövlətləri arasında əməkdaşlığın dərinləşməsini təşviq edir, həm də bütövlükdə Türk dünyasının qlobal proseslərdə mövqelərini möhkəmləndirir. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiyanı Avropa ilə birləşdirən nəhəng infrastruktur olmaqla yanaşı, Türkiyədən Orta Asiyaya qədər türk dövlətləri arasında ticarət dövriyyəsinin artmasında mühüm təsir göstərib.

Ən əsası Azərbaycanın enerji layihələri istər birbaşa, istərsə də dolayısı ilə bütün türk dövlətlərini birləşdirir. Bakı-Tbilisi-Ceyhan neft və Cənub Qaz Dəhlizi Qazaxıstan və Türkmənistanın Xəzərdən hasil etdikləri karbohidrogen ehtiyatların ixracı ilə bağlı imkanlarının genişlənməsinə səbəb olub. Eyni zamanda bu layihələr qardaş Türkiyənin enerji təhlükəsizliyini daha da gücləndirib. Bütün bunlar Azərbaycanın türk dünyasına böyük töhfələridir.

Bu barədə danışan Prezident İlham Əliyev Azərbaycanın bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxladığını bəyan edərək deyib: ***«Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır»*.**

*(davamı gələn sayımızda)*

**Ziyad SƏMƏDZADƏ,**
**Milli Məclisin deputatı, akademik**

**Mənbə: Azərbaycan qəzeti, 3 oktyabr 2024-cü il.**

## Yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 17,7 mlrd. manatdan çox olub

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən yeni nəsil nəzarət-kassa aparatlarının (NKA) tətbiqi istiqamətində işlər davam etdirilir. İndiyədək ölkə ərazisində 101.605 ədəd yeni nəsil NKA quraşdırılıb.

Bu barədə Trend İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir.

Belə NKA-lardan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində yeni nəsil NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 17,7 milyard manatdan artıq olub ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,7 milyard manatdan, yaxud 10,7 faizdən çoxdur.

## Ölkədə əmək müqavilələrinin sayı artıb

Azərbaycanda bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 450.972 vahid artıb və 2024-cü il oktyabr ayının 1-nə 1.852.887 təşkil edib. Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib. Qeyd edilib ki, qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 430.502 vahid artaraq 970.424-ə çatıb.

## Şuşa şəhərinə növbəti köç karvanı yola salınıb

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanı oktyabrın 8-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Şuşa şəhərinə 16 ailə - 60 nəfər köçürülüb.

Xatırladaq ki, indiyədək Şuşa şəhərində 220 ailənin, yəni 823 nəfərin daimi məskunlaşması təmin edilib.

## Xəzinənin daxili bazardan borclanması 2,5 milyard manatı keçib

2024-cü ilin 9 ayı ərzində Maliyyə Nazirliyi tərəfindən dövlət istiqrazlarının yerləşdirilməsi yolu ilə 2 milyard 533 milyon 209 min manat cəlb edilib.

Bakı Fond Birjasına istinadən xəbər verir ki, Maliyyə Nazirliyi tərəfindən dövlət istiqrazlarının yerləşdirilməsi yolu ilə cəlb edilən vəsait ötən ilin eyni dövrü ilə müqayisədə 317 milyon 476 min manat və ya 14,3% artıb.

2023-cü ilin 9 ayı ərzində Maliyyə Nazirliyi dövlət istiqrazlarının yerləşdirilməsi yolu ilə 2 milyard 215 milyon 733 min manat cəlb etmişdi.

# «Становится ли мир действительно лучше? Более предсказуемым, безопасным, стабильным»?

**Эти слова сказал Министр иностранных дел Беларуси М.Рыженков на 79-й сессии Генеральной Ассамблеи ООН. (28 сентября 2024 г., г.Нью-Йорк)**

***Предлагаем этот доклад вашему вниманию***

***Господин Председатель, уважаемые делегаты, коллеги,***

***Вот уже 79 лет наши страны встречаются в этом зале, чтобы донести свою правду, обменяться лучшими практиками и поддержать важные инициативы. И все это под девизом – сделать мир лучше.***

***А становится ли мир действительно лучше? Более предсказуемым, безопасным, стабильным?***

Среди нас есть старожилы, которые помнят те времена, когда площадка ООН играла в этом свою особую роль. Мы - более молодые - знаем это, к сожалению, лишь по учебникам.

Тогда – много лет назад – Устав ООН был чем-то незыблемым, подлинным гарантом компромиссных и направленных в будущее решений. Многие еще помнили жертвы и ужасы Второй мировой войны, и никто не хотел повторения той жуткой трагедии. Поэтому вместе мы сформировали уникальный инструмент коллективного разрешения споров и укрепления архитектуры международного взаимодействия.

Да, как показала история, инструмент не во всем совершенный. Как и все мы. Но, несомненно, лучший из тех, что мир имел до и имеет сейчас.

Не все вопросы, даже по которым были однозначные решения, удалось довести до реализации, и они кровоточат до сих пор. Например – Палестина. Где сегодня развязана настоящая гуманитарная катастрофа и гибнут десятки тысяч мирных жителей.

Но это не умаляет достижений прошлого века. Произошел слом колониальной системы. Многие народы получили выстраданное право на самостоятельное развитие. Появились точки экономического, промышленного и финансового роста на всех континентах. Целые регионы стали выходить из тени голода и эпидемий.

Миротворческая деятельность ООН была способна предотвращать кровавые конфликты или способствовать их прекращению. Голубой цвет ООН был везде, где успешно решались проблемы в целях развития.

Но что же случилось сегодня? Почему нам потребовалось создать Группу друзей в защиту Устава ООН? Почему сегодня мы вынуждены защищать документ, который и так имеет высшую правовую силу для всех? Почему мы не можем в полной мере задействовать инструментарий ООН для наведения порядка в мире?

Ответ очевиден. Потому, что ряд стран не живут по нормам, предписанным Уставом. И не собираются жить. Потому, что жить по международному праву для них – сродни медленному угасанию.

Да, на этой трибуне все и они, в том числе, вспоминают Устав. Однако, не в универсальном плане, а применительно лишь к своим эгоистичным интересам и притязаниям. И зачастую в отношении других. **Напоминаю** – универсальный закон ООН дает всем без исключения равные права на развитие и равный недискриминационный доступ к общим благам, технологиям, ресурсам. Но приемлем ли такой подход для Запада? Очевидно, что нет.

Их главный интерес – сохранение доминирования на планете и обеспечение благосостояния своих элит. Ради этого эксплуатируются целые народы и чужие ресурсы, сдерживается развитие остального мира. Повсеместно применяется старый как мир принцип – «разделяй и властвуй», который, по сути, составляет основу всех военных конфликтов современности.

Все принципы ООН забрасываются на самую дальнюю «полку», когда дело касается так называемых «жизненных интересов» США и их сателлитов.

Но если какое-либо государство осмелится проводить политику в интересах своего народа или попытается скинуть ярмо внешнего управления своими ресурсами, Запад вспоминает обо всех конвенциях, параграфах и самых ничтожных сносках к ним.

**И главное:** к отступнику применяется весь набор незаконных санкций и давления. В этом природа всех так называемых цветных революций, которые ведут лишь к страданиям и потрясениям для простых людей. Это путь Запада. Это их рецепт нового мира. Этот рецепт, кстати, обильно «приправлен» вооружениями НАТО.

Вдумайтесь! Сегодня порядка 40 стран с населением в два с половиной миллиарда находятся под незаконными односторонними ограничительными мерами США и Европейского союза. При этом многие живут в таких условиях десятилетиями, а свободолюбивая Куба – более полувека.

Этот инструмент грубо нарушает целые разделы международного права и Устава ООН. Он незаконно замедляет устойчивое развитие, подрывает продовольственную и энергетическую безопасность, ограничивает доступ к мировым рынкам, нарушает право на свободу передвижения.

Он также бьет бумерангом и по простым людям в странах – инициаторах. Мы видим, как в соседних с нами государствах ЕС население жалуется на постоянно растущие цены на энергоносители и продовольствие, социальные потрясения.

Так что же в итоге? Сегодня с точки зрения коллективного Запада – информация взята из американских источников – 72 процента населения планеты проживает в так называемых ими «автократиях». А лет двадцать назад этот показатель, по их же оценкам, был 46 процентов. Так успешна ли политика Запада заставить мировое сообщество жить по их лекалам? Ответ очевиден. Явно нет.



В целом, очевидна и тенденция – свободные страны Глобального Юга не приемлют санкций, вмешательства в свои внутренние дела и навязываемой им «демократизации». Они хотят развиваться на основе своих собственных исторических традиций, своего понимания мира и, главное, в интересах своих народов.

И сегодня это уже Глобальное Большинство, в глубине которого рождаются новые идеи и проекты. Кстати, исключительно мирные, в интересах всего мирового сообщества, а не против кого-либо. Это китайские инициативы – «Один Пояс, Один Путь» и выдвинутые Председателем КНР Си Цзиньпином глобальная инициатива развития, инициативы в области глобальной безопасности и глобальной цивилизации. Это белорусско-российская идея Хартии многообразия и многополярности в 21 веке. Это и индийская инициатива саммитов «Голос Глобального Юга» и много других.

В той или иной степени все эти проекты направлены на формирование международного сообщества единой судьбы всей планеты, а не судьбы так называемого «золотого миллиарда».

Ведь планета у нас одна, хоть и во всем своем многообразии, которое обогащает всех нас.

**Это – и наш путь.** Путь нашего Президента Александра Лукашенко и нашего народа. В основе которого – уважение, доверие, искренность, надежность и ответственность.

Кстати, на последний пакет незаконных санкций Беларусь ответила открытостью и в одностороннем порядке отменила визовый режим для граждан всех стран ЕС. Тысячи граждан ЕС уже воспользовались этим, посетили нашу страну и не разочаровались, и диктатуры нигде не увидели.

Если бы сегодня доверяли больше ООН, большинство глобальных мирных инициатив рождалось бы и варилось бы именно внутри самой Организации, а не вне ее. А миру не грозил бы вновь раскол на политические и экономические блоки.

Пару слов о конфликтном потенциале на планете. Немножко необычно. Мы все привыкли к третьесортным fiction произведениям и роликам в youtube. Быстрым и абсолютно бесполезным. Нас приучают к этому незамысловатому стилю получения информации, заставляя забывать истины, которые прописывали многие известные писатели и гуманисты.

В этой связи я намеренно обращусь к трем западным писателям, одному английскому и двум американским, чтобы провести некоторые параллели с современными событиями.

В первом случае – цитата из произведения «Короли и капуста» всеми любимого О.Генри, 100 лет назад: ***«Крошечные опереточные народы забавляются игрою в правительства, покуда в один прекрасный день в их водах не появляется молчаливый военный корабль и говорит им: не ломайте игрушек!».*** Американский корабль…

Во втором случае вспомню Грэма Грина, это уже 70 лет назад, с его «Тихим американцем» в лице сотрудника ЦРУ под прикрытием Посольства США во Вьетнаме, который искал некую третью силу, чтобы через серию терактов устроить переворот в этом государстве и привести к власти лояльные к Америке силы.

И наконец, упомяну Курта Воннегута, около 50 лет назад, «Человек без страны», который так и не смог понять, зачем США и Великобритании надо было в самом конце Второй мировой войны, когда и так все уже было ясно, ковровыми бомбардировками сровнять с землей город Дрезден, похоронив под завалами более сотни тысяч стариков, детей и женщин. Мы-то знаем, – для устрашения на будущее. Три примера.

Очень похоже на то, что мы сегодня видим много где в мире. И третья сила, и провокации, и условный американский корабль, только побольше, и не один.

Именно поэтому нужна сильная и беспристрастная универсальная международная организация, способная гарантировать равновесие в мире, при котором ни одна страна или блок стран не сможет подмять под себя инструментарий ООН в угоду своему эгоизму и в ущерб международному большинству.

Сильная организация не позволила бы, чтобы в угоду транснациональному капиталу и в интересах коллективного Запада Украина воевала сегодня до «последнего украинца».

И если бы все, как соседняя Беларусь, осознавали, что реально происходит в зоне конфликта и чем это грозит, и действительно хотели бы остановить кровавое противостояние двух братских народов – то давно бы Украина была с Россией не на поле боя, а за столом мирных переговоров. В этом контексте очень своевременны инициативы, подобные Бразильско-китайскому мирному плану. Однако без участия России ни один проект успеха иметь не будет. Новой архитектуры безопасности в нашем регионе не может быть и без участия Беларуси.

Ну а пока НАТО продолжает кратно наращивать военный потенциал на наших западных границах. Десятки тысяч солдат и тысячи единиц техники. Мы серьезно опасаемся, что «игра» может выйти из-под контроля и привести к разрастанию конфликта в региональном и даже в глобальном масштабе с катастрофическими последствиями для всех. Ядерного оружия в Европе хватает. Поэтому эскалация напряженности – прямой путь к третьей мировой войне. 10 лет назад Минск стал местом результативных переговоров по разрешению конфликта в Украине. Мы и сейчас предлагаем свои миротворческие усилия, ибо лучше всех знаем и понимаем русских и украинцев. И будем делать все от нас зависящее для достижения мира на многострадальной украинской земле. Мы больше всех заинтересованы в этом!

И для общего сведения. Только через нашу границу с ЕС с момента начала конфликта в Беларусь переместилось более 250 тысяч украинцев. В последнее время – 12-15 тысяч в месяц. Это официальные цифры Погранслужбы. Вот так из благополучной Европы сегодня бегут. Бегут явно не к «агрессорам». Кстати, это число в разы больше, чем количество беженцев через нашу границу в ЕС.

Бессовестные «выталкивания» в Беларусь мигрантов – это еще одна грязная страница в книге европейской «демократии». Так, на нашей границе с ЕС военные некоторых стран Европейского союза безнаказанно избивают, пытают тысячи беженцев из стран Азии, Африки и Ближнего Востока. Десятки из них убиты, что кстати, фиксируется международными независимыми источниками. Многие преданы земле даже без личных данных. Их нет. Кстати, Совет Европы совсем недавно однозначно осудил подобные действия. Кроме того, раскритиковал новый закон Польши, расширяющий спектр легального применения огнестрельного оружия польскими военнослужащими в отношении беженцев.

Поэтому нас беспокоит то, каким мы видим путь укрепления основ ООН.

**Первое**. ООН должна освободиться от диктата со стороны отдельных государств, страдающих вседозволенностью и собственной исключительностью. ООН – это все мы.

**Второе.** Организация должна работать в поддержку региональных процессов, поскольку регионализм – это ключевая реалия сегодняшнего дня. Мы наблюдаем постоянное укрепление региональных интеграционных процессов в различных уголках планеты. Набирают обороты в своей деятельности объединения стран Глобального Большинства. Это – БРИКС, ШОС, СНГ, ЕАЭС, Африканский Союз, АСЕАН и многие другие. Почему – я уже сказал выше. ООН необходимо «встраиваться» в эти процессы, содействуя их развитию и сопряжению.

**Третье.** В прошлом году страны Запада инсценировали грязную кампанию по недопущению избрания кандидатуры Беларуси в состав непостоянных членов Совет Безопасности.

Так сильно боялись нашего честного голоса в этом органе. Однако и вне Совета мы будем прямо и открыто высказываться по всему спектру мировых проблем. Более того, мы и далее будем настаивать на справедливой реформе Совета Безопасности, потому что голос стран Глобального большинства в Совете – это и наш голос.

**Четвертое.** ООН должна сказать свое принципиальное слово о неприемлемости односторонних мер. Мы вправе ожидать от Организации серьезных и объективных оценок о негативном влиянии санкций на процессы устойчивого развития, о котором мы так все печемся. Более того, считаем необходимым поставить работу в ООН по противодействию незаконным санкциям на системную основу. Всем таким случаям должна даваться принципиальная объективная оценка.

**Пятое.** Необходимо использовать ООН как площадку для эффективного решения постоянно нарастающих транснациональных угроз. Беларусь всегда была привержена коллективному подходу для решения общих глобальных проблем. Миграция, пандемии, стихийные бедствия, торговля людьми, голод и многие другие.

За стенами этого зала есть таймер, который в режиме реального времени четко отсчитывает денежные средства, затраченные на вооружение. Триллионы долларов! Это только то, что знает ООН. Пусть бы страны «золотого миллиарда» направили бы эти триллионы не на развязывание и подпитку очередных войн и конфликтов, а на решение жизненных, для человека, вопросов.

И еще, ООН должна быть голосом государств и не размываться различными негосударственными структурами. Ведь именно государства-члены принимают в Организации решения, влияющие на судьбы всех людей на планете, и в полной мере несут ответственность за их реализацию.

В следующем году мы все вместе отметим 80-летие со дня создания ООН. С чем мир подойдет к этой важной дате? В ссорах и конфликтах? Именно поэтому Президент Беларуси Александр Лукашенко выдвинул инициативу проведения глобального диалога по безопасности. Кстати, очень созвучно всем инициативам, о которых многие представители государств-членов ООН говорили сегодня и вчера в этом зале.

И мы будем продолжать стучаться в двери «мира и созидания», «безопасности и развития».

С прошлого года мы проводим в Минске представительную международную конференцию по евразийской безопасности, которая призвана консолидировать политические, экономические и иные процессы на пространстве Большой Евразии в интересах ее государств и народов. В этом году она пройдет 31 октября. Приглашаем всех.

Мы должны вновь наполнить легкие ООН духом Сан-Франциско, который дал жизнь нашей Организации. Убеждены в том, что это сегодня жизненно необходимо. Необходимо в интересах всех людей на планете.

**Благодарю за внимание.**

## На встрече в Нью-Йорке



На встрече в Нью-Йорке главы МИД Максим Рыженков и Джейхун Байрамов констатировали стратегический характер отношений, обсудили ход реализации договоренностей глав государств, договорились о способах активизации и систематизации работы по ряду направлений, рассмотрели повестку предстоящих визитов, взаимодействия по линии МИД, совместные кооперационные и инфраструктурные проекты.

# UNEC-də "Yaşıl iqtisadiyyat: Elm, təhsil, texnologiya və innovasiya" mövzusunda beynəlxalq konfrans keçirilib





***"2018-ci ildə UNEC-in (Azərbaycan Dövlət İqtisad Universitetinin) strateji fəaliyyət planı hazırlanarkən 2030-cu ilədək "yaşıl universitet"ə çevrilmək bizim əsas hədəfimiz olaraq müəyyənləşdirilmişdi". Bu sözləri oktyabrın 3-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Rusiyanın Sankt-Peterburq Dövlət İqtisad Universiteti ilə birgə COP29-a həsr olunan "Yaşıl iqtisadiyyat: Elm, təhsil, texnologiya və innovasiya" mövzusunda beynəlxalq elmi-praktiki konfransda UNEC-in rektoru, professor Ədalət Muradov deyib.***

O, bildirib ki, universitetdə COP29-a həsr olunan silsilə tədbirlər keçirilir, konfransın təşkili də bu istiqamətdə atılan növbəti addımdır. QS Dayanıqlılıq Reytinqi 2024 üzrə UNEC-in ölkədə lider olduğunu diqqətə çatdıran rektor UNEC alimlərinin dayanıqlı inkişaf məqsədləri üzrə 400-dən çox məqaləsinin çap edildiyini, bu göstəricinin yaşıl dünya naminə həmrəylik ili üçün önəmli töhfə olduğunu vurğulayıb.

**Ə.Muradov** bu konfransın UNEC-in Rusiya Federasiyasının Sankt-Peterburq Dövlət İqtisad Universiteti ilə birgə həyata keçirdiyi silsilə tədbirlərdən olduğunu da qeyd edib: ***"Sankt-Peterburq Dövlət İqtisad Universiteti ilə çox məhsuldar əməkdaşlıq davam edir. Bu əməkdaşlıq vasitəsilə UNEC tələbələri Rusiyanın adıçəkilən ali təhsil müəssisəsində bir semestr təhsil alır, doktorantlarımız üçün yer ayrılır".*** Rektor yaxın vaxtlarda yeni layihələrə də start veriləcəyini bildirib.

COP29-da müzakirəsi vacib hesab edilən - "yaşıl iqtisadiyyat"a keçiddə dövlətin rolunun artırılması, "yaşıl iqtisadiyyat" konsepsiyasının tələblərinə cavab verməyən qlobal təşkilatların transformasiyası, ətraf mühit siyasətinin iqtisadi artıma təsiri, ümumi daxili məhsulda yaşıllaşma və yaşıl təhsil modelinə keçidlə bağlı təkliflərin ictimaiyyətin müzakirəsinə çıxarıldığını da diqqətə çatdıran Ədalət Muradov bugünkü konfransda COP29 və yaşıl dünyaya həsr olunan çoxsaylı suallara cavabların tapılacağından əminliyini bildirib.

Tədbirdə Sankt-Peterburq **Dövlət İqtisad Universitetinin rektoru professor İqor Maksimsevin** konfrans iştirakçılarına videomüraciəti nümayiş olunub.

Tədbirdə çıxış edən Milli Məclisin **Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, UNEC dosenti Sadiq Qurbanov** ekoloji mühitin yaxşılaşdırılmasının dünyaya verdiyi töhfələrdən və Azərbaycanın bu prosesdə rolundan danışmışdır: ***"COP29-un Azərbaycanda keçirilməsi təsadüfi deyildir. Bu gün Azərbaycan bir dövlət olaraq bəşəri dəyərlərə xüsusi həssaslıqla yanaşır. Ölkəmizin növbəti illərdə illərdə qarşıya qoyduğu beş milli prioritetdən də biri məhz ətraf mühitin yaxşılaşdırılması məsələsidir".***





Komitə sədri ekoloji maarifləndirmə, təkrar emal, yeni texnologiyaların inkişafı və elm mərkəzlərinin yaradılmasının vacibliyindən danışıb, konfransın elmi-praktiki nəticələrinin bu istiqamətdə böyük töhfələr verəcəyinə inandığını bildirib.

Konfransda iştirak edən **Türkiyənin əmək və sosial müdafiə nazirinin müavini, prof. Lütfihak Alpkan** yaşıl transformasiyaya ədalətli keçid barədə maraqlı təqdimatla çıxış edib. Nazir müavini yaşıl transformasiyanı şərtləndirən amillər, iqlim dəyişikliliyi, iqlim böhranının səbəb və nəticələri, istixana qazlarının emissiyaları, Türkiyənin ekologiyaya verdiyi töhfələrlə bağlı statistik məlumatları konfrans iştirakçılarının diqqətinə çatdırıb. O, qeyd edib ki, hər gün 13 min insan iqlim problemlərinin yaratdığı xəstəliklərdən dünyasını dəyişir: ***"Ətraf mühiti insanlar deyil, istehsal çirkləndirir. Zərərli məhsulun və israfın artması ətraf mühitin çirklənməsini artırır".*** Bir çox ölkələrdə sintetik məhsulların yaradılmasının mövcud problemlərin həlli olmadığını bildirən nazir müavini bunun yaşayışımız üçün problem olduğunu vurğulayıb. Nazir müavininin sözlərinə görə, dünyada istehsal olunan qida məhsullarının 1/5-i ətrafa atılır: ***"Bu da çirklənməni 10 faiz artırır".***

Hazırda ətraf mühiti ən çox çirkləndirən ölkələrin Çin, ABŞ, Hindistan, Rusiya, Yaponiya olduğunu bildirən L.Alpkan Türkiyənin bu sıralamada 14-cü yerdə qərarlaşdığını da nəzərə çatdırıb. Onun sözlərinə görə, Paris İqlim Sazişinə əsasən, qlobal istiləşmə 1,5°C səviyyəsində qalmalıdır, bu da yaşıl transformasiya sayəsində mümkündür. Türkiyəli qonaq əlavə edib ki, yaşıl transformasiyanın bir sıra zərərli yan təsirləri də var. Məsələn, elektriklə işləyən maşınlar - onlar batareya ilə işləyir. Bu batereyanın isə hansı təsirləri olacaq, bunu gələcək göstərəcək.

**Konfransda çıxış edən millət vəkili, akademik Ziyad Səmədzadə** konfransı Azərbaycanın elm tarixində mühüm hadisə kimi qiymətləndirib, "yaşıl iqtisadiyyat"a keçid prosesində ölkəmizin iqtisadi maraqlarının təmin olunmasını vacib məsələlərdən biri kimi qeyd edib. O, bildirib ki, "yaşıl iqtisadiyyat"a keçid prosesi birdən-birə deyil, tədricən həyata keçirilməlidir. Akademik neft amilinin əhəmiyyətinə də diqqət çəkərək, bugünkü neft strategiyamızın Azərbaycanın gələcəyinə xidmət etdiyini vurğulayıb: ***"Yəni, cəmiyyət düşünməsin ki, artıq neft dövrü bitdi. Bizim məqsədimiz bu sahələrin inkişafı ilə paralel olaraq "yaşıl iqtisadiyyat"ı inkişaf etdirməkdir. Bu gün cənab Prezident İlham Əliyev "yaşıl iqtisadiyyat"ın inkişafı üçün titanik fəaliyyət göstərir. Biz də cənab prezidentin bu inkişaf strategiyasına dəstək olmalıyıq".***

Daha sonra tədbirdə **Rusiyanın Əməkdar elm xadimi Georgiy Baqıyev,** Paşa Holdinqin əməkdaşı Fuad İbrahimov "yaşıl iqtisadiyyat"a keçid, ekoloji və iqtisadi böhranlara qarşı antiböhran modeli, ekoloji mallar bazarında innovativ marketinq konsepsiyasının işlənib hazırlanması mövzularında çıxışlar ediblər.

**UNEC-in Elmi fəaliyyətin təşkili və idarəedilməsi departamentinin direktoru, UNEC Avrasiya Beynəlxalq Tədqiqat mərkəzinin rəhbəri professor, Zahid Məmmədovun** moderatorluğu ilə keçirilən konfrans mövzu ilə bağlı panel müzakirələrlə davam edib. Panellərdə Azərbaycan, Türkiyə, Rusiya və Almaniyadan olan ekspertlərin iştirakı ilə "yaşıl texnologiyalar", "yaşıl iqtisadiyyat" sektorunda sahibkarlar, davamlı inkişaf layihəsinin həyata keçirilməsi üçün təhsil müəssisələrinin biznes və hökumətlə qarşılıqlı əlaqəsi, yaşıl maliyyələşmə və digər mövzularda müzakirələr aparılıb.

Tədbir çərçivəsində UNEC Dizayn Məktəbinin tələbələrinin ekologiyaya həsr etdikləri rəsm sərgisi, eləcə də ekoloji təmiz parçalardan hazırlanmış geyim nümayiş olunub, "Qida mühəndisliyi" ixtisasının tələbələrinin UNEC-in Qida təhlükəsizliyi laboratoriyasında hazırladıqları ekoloji təmiz qidalar dequstasiya üçün təqdim edilib.

**Mətanət Hüseynova**

# Türkiyənin Azərbaycana avtomobil sənayesi məhsulları ixracı azalıb

2024-cü ilin yanvar-sentyabr aylarında Türkiyənin Azərbaycana avtomobil sənayesi məhsulları ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 15,9 faiz azalaraq, 67,7 milyon dollara bərabər olub.

Trend xəbər verir ki, bu barədə TurkicWorld-ə Türkiyə Ticarət Nazirliyindən bildiriblər.

"Bu ilin sentyabr ayında Türkiyə Azərbaycana 9,5 milyon dollar məbləğində avtomobil sənayesi məhsulları ixrac edib ki, bu da keçən ilin sentyabr ayı ilə müqayisədə 4,8 faiz azdır" – deyə nazirlikdən bildirilib.

Qeyd edək ki, Türkiyənin 2024-cü ilin yanvar-sentyabr aylarında avtomobil sənayesi məhsulları ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 5,3 faiz artaraq 26 milyard 933 milyon dolları ötüb. ***"2024-cü ilin sentyabr ayında Türkiyənin dünya bazarlarına avtomobil sənayesi məhsulları ixracı 2023-ci ilin eyni ayı ilə müqayisədə 20,9 faiz azalaraq, 3 milyard 406 milyon dollara bərabər olub"***, - deyə məlumatda qeyd edilib.

Qeyd olunub ki, son 12 ay ərzində (sentyabr 2023-sentyabr 2024) Türkiyə 36 milyard 349 milyon dollar məbləğində avtomobil sənayesi məhsulları ixrac edib.

# Asiya İnkişaf Bankı ilə əməkdaşlıq məsələləri müzakirə olunub

İqtisadiyyat Nazirliyində keçirilən görüşdə Asiya İnkişaf Bankı ilə əməkdaşlığın prioritet istiqamətləri müzakirə olunub.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya Departamentinin Direktorunun müavini xanım Şiahonq Yanqla görüşüb.

Görüşdə Bankla əlaqələrin inkişaf etdiyi qeyd olunub, dövlət-özəl tərəfdaşlığı, ətraf mühit, rəqəmsal inkişaf, enerji, ölkəmizin tranzit-logistika potensialının artırılması və müxtəlif infrastruktur layihələrinin reallaşdırılmasında Bankın iştirakı yüksək qiymətləndirilib.



Tərəflər tərəfdaşlığın hazırkı vəziyyəti və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar. İqlim dəyişikliyi ilə mübarizə üçün maliyyələşmə imkanları, eləcə də, COP29 çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

# Azərbaycanda qiymətli kağızların məsafədən ticarətinə başlanılacaq

"Yaxın günlərdə "Bakı Fond Birjası" QSC (BFB) investorlara qiymətli kağızların məsafədən ticarəti üçün imkan yaradacaq".

Bunu BFB-nin məhsulun inkişafı üzrə rəhbəri Fərid Abbaszadə bildirib. **"Bu, səhm və istiqrazların ticarətini daha əlçatan edəcək"**, - deyə o qeyd edib.

Bundan başqa, Birja rəsmisi deyib ki, "yaşıl istiqraz" seqmentinin yaradılması və bu seqment üzrə stimullaşdırma layihələrinin həyata keçirilməsi üçün iş aparılır: **"Biz hazırda Azərbaycan Mərkəzi Bankının maliyyə taksanomiyasını təsdiq etməsini gözləyirik ki, layihələrimizi ictimaiyyətə açıqlayaq. Dayanıqlı maliyyə alətlərinin ticarəti üçün açığıq və buna dəstək verməyə hazırıq".**



# Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 13,4 faiz artıb

2024-cü ilin yanvar-sentyabr ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 12 milyard manatdan çox vergi daxil olub.

Xidmətin yaydığı məlumatda bildirilir ki, qeyri-neft-qaz sektorundan daxilolmalar 8 milyard 417,5 milyon manat təşkil edib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 991,7 milyon manat və ya 13,4 faiz artıb. Ödənilən vergilərin 70 faizi qeyri-neft-qaz sektorunun, 30 faizi isə neft-qaz sektorunun payına düşüb.

# Avropa İttifaqının Rusiyaya qarşı yeni sanksiya rejimi bir il qüvvədə olacaq

Avropa İttifaqı (Aİ) Şurasının ötən gün Rusiyaya qarşı qəbul etdiyi məhdudlaşdırıcı tədbirlərin yeni mexanizmi 2025-ci il oktyabrın 9-dək qüvvədə olacaq.

Bu barədə Aİ-nin rəsmi jurnalında dərc olunmuş qətnamədə deyilir.

"Qərar 2025-ci il oktyabrın 9-dək qüvvədə olacaq", – qətnamədə qeyd olunub.



Hazırda Aİ-nin bəzi mexanizmləri bir il müddətinə təsdiq edilsə də, Avropa İttifaqında Rusiya Federasiyasına qarşı əsas sanksiya tədbirləri hər altı aydan bir nəzərdən keçirilir.

Sentyabrın 13-də Britaniyanın "Financial Times" (FT) qəzeti yazıb ki, Aİ ölkələrinin daimi nümayəndələri Rusiyaya qarşı sanksiyaların hər altı aydan daha az müddətə uzadılması imkanını nəzərdən keçirəcəklər, sanksiyaların qüvvədə olma müddəti 3 ilədək artırıla bilər.

# Rusiya və Türkmənistan 2025-ci ildə MDB-də həmsədr olacaqlar

***"2025-ci ildə Müstəqil Dövlətlər Birliyində Rusiya və Türkmənistan həmsədr olacaqlar, sonuncu gələcək sədr kimi, Aşqabadın artıq razılığı alınıb".***

Bu barədə MDB Dövlət Başçıları Şurasının iclasının yekunlarına dair MDB-nin baş katibi Sergey Lebedev məlumat verib.

"Dar formatda gələn il Müstəqil Dövlətlər Birliyində sədrlik barədə qərar qəbul edilib. Rusiya sədrliyi Tacikistan Respublikasına təhvil verir və yanvarın 1-dən Tacikistan Birliyin bütün ali orqanlarına sədrlik edəcək. Bu, Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, MDB-nin İqtisadi Şurasıdır. Diqqətəlayiq haldır ki, həmsədr qismində Rusiya Federasiyası keçmiş sədr kimi və Türkmənistan gələcək sədr kimi çıxış edəcəklər – biz artıq Türkmənistan rəhbərliyindən razılıq almışıq ki, onlar 2026-cı ildə sədrliyi qəbul etməyə hazırdırlar", – Lebedev bildirib.



# "The Economist" Azərbaycanın gündəlik neft-qaz hasilatının azalacağını proqnozlaşdırır



Bu il Azərbaycanın gündəlik neft və təbii maye qaz hasilatı (Crude oil & NGL production) 662 min barel təşkil edəcək.

Bu barədə "The Economist Group"un araşdırma və təhlil bölməsi olan "Economist Intelligence Unit"in (EIU) ölkə ilə bağlı proqnozunda bildirilib. EIU növbəti illərdə Azərbaycanın gündəlik neft-qaz hasilatının nisbətən azalacağını proqnozlaşdırıb. Belə ki, "The Economist"in təhlil qrupu 2025-ci il üzrə Azərbaycanın gündəlik neft-qaz hasilatının 657 min, 2026-cı il üzrə 654 min, 2027-ci il üzrə 652 min, 2028-ci ildə isə 650 min barel təşkil edəcəyi gözləntisindədir.

# "Yaxın Şərqdə vəziyyətin kəskinləşməsi iqtisadiyyat üçün ciddi nəticələrə səbəb olacaq"

Bunu jurnalistlər üçün keçirdiyi növbəti brifinqdə Beynəlxalq Valyuta Fondunun (BVF) rəsmi nümayəndəsi Culi Kozak deyib.

***"Yaxın Şərqdə münaqişənin daha da genişlənməsi ehtimalı riskləri və qeyri-müəyyənliyi artırır, region və onun hüdudlarından kənarda mühüm iqtisadi nəticələrə səbəb ola bilər. Son hadisələrə gəlincə, onların iqtisadi nəticələri barədə danışmaq hələ tezdir, lakin iqtisadiyyat münaqişənin mərkəzindədir",*** - o vurğulayıb.

Kozakın sözlərinə görə, İordan çayının qərb sahili, Qəzza zolağı, Livan və İsrail iqtisadi cəhətdən "ciddi təsirlənib".

O vurğulayıb ki, Yaxın Şərq münaqişəsinin kəskinləşməsi nəqliyyat və malların qiymətinə təsir edir. "Biz vəziyyəti diqqətlə izləyirik, bu, böyük narahatlıq doğurur, çox yüksək qeyri-müəyyənlik var", - deyə fondun nümayəndəsi yekunlaşdırıb.




# Almaniya Ukraynaya 400 milyon avro ayırıb

"Bundestaq (Almaniya parlamenti) 2024-cü il üçün Ukraynaya 400 milyon avro məbləğində əlavə yardımın ayrılmasını təsdiqləyib".

Trend xəbər verir ki, bu barədə RND-yə müsahibəsində Almaniya Müdafiə Nazirliyi yanında Ukraynaya yardımın əlaqələndirilməsi üzrə işçi qrupun rəhbəri Kristian Froydinq deyib. ***"Bu, bizə bu il ümumi dəyəri 1,4 milyard avro olan 50 layihəni həyata keçirməyə imkan verəcək",*** - o bildirib.

K.Froydinq qeyd edib ki, Almaniya Ukraynaya dəstəyini davam etdirəcək. Təkcə ötən həftə Kiyevə 2 ədəd "IRIS-T SLM" və "SLS" zenit-raket kompleksi verilib. İlin sonuna kimi daha 2 zenit sistemi, piyadaların döyüş maşınları, tanklar və artilleriya sursatları tədarük ediləcək.

# Qəzzanın bərpası 90 milyard dollara qədər vəsait tələb edir



BMT-nin hesablamalarına görə, Qəzza zolağının yenidən qurulması, 80-90 milyard dollar dəyərində qiymətləndirilir. Qeyd olunur ki, Qəzzanın yenidən qurulması ilə bağlı beynəlxalq donor konfransı keçirmək lazımdır.

Vurğulanıb ki, bu konfrans nizamlanma və aydın baxış olmadan baş tutmayacaq.

# Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsində yeni müalicə metodları ilə fizioterapevtik prosedurlar icra edilir



Mərkəzi Gömrük Hospitalının ən müasir avadanlıqlarla təchiz edilmiş Fizioterapiya şöbəsində yüksəkixtisaslı tibb personalı yeni müalicə metodları ilə fizioterapevtik prosedurları təqdim edir. Şöbədə sinir sistemi, Parkinson xəstəliyi, üz iflicinin, beyin və onurğa beyni zədələrinin, bel, boyun, çiyin nahiyəsində ağrılar, yırtıq, insult, skolioz, uşaqlarda lordoz, bütün növ əzələ xəstəliklərinin, sümük xəstəliklərinin, nevroloji, yaşa bağlı ortopedik xəstəliklərin müalicəsi uğurla həyata keçirilir.

Dünyanın bir sıra aparıcı ölkələrində tibbi təhsil almış şöbənin yüksəkixtisaslı tibb personalı tərəfindən ultrasəs, kombinə elektroterapiyası, elektroforez, endopress, elektrostimulyasiya, qısa dalğa, lazer, traksiya, maqnitoterapiya, balneoterapiya, osteopatiya, tibbi masaj, manual terapiya, detoksikasiya, biorezonans, limfodrenaj və zərbə dalğa terapiyası kimi prosedurlar icra edilir.

Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsində 2024-cü ilin sentyabr ayından etibarən PREMIUM seriyalı yeni BTL-4825 SL cihazları pasiyentlərin istifadəsinə verilib. PREMIUM seriyalı 2 ədəd BTL-4825 SL cihazları ideal parametrlərə malik olub, çox perspektivli, innovativ kombinə edilmiş fizioterapiya sistemləridir. Bu cihazlar cərəyanların geniş spektri ilə iki kanallı elektroterapiyanı, ultrasəs və lazer terapiyasını təmin edir.



Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsinin rəisi, fizioterapevt-reabilitoloq Dr. Səidə Kərimova və fizioterapevt-reabilitoloq Afət Çəndirli xəstəliklərə uyğun olaraq müalicə prosedurlarını təyin edirlər. Şöbənin peşəkar tibb personalı hər bir xəstəyə fərdi yanaşır. Onların məqsədi müalicədən sonra xəstəliyin növündən və dərəcəsindən asılı olaraq istənilən nəticəni əldə etməkdir.

Müasir dünyada ən çox yayılan xəstəliklərdən biri də onurğa sütununun əyilməsi ilə əlaqədar olan skolioz xəstəliyidir. Bu xəstəlik həm erkən yaşlarda, həm də oturaq həyat tərzi keçirən gənc və yaşlı insanlarda dayaq hərəkət sistemində, onurğa sütununda problemlər yaradır. Fizioterapiya şöbəsində skoliozun dərəcəsi imkan verirsə, mümkün qədər əməliyyatsız müalicə edilir. Əsas müalicə üsulu Avropada, ABŞ-da, İsrail və digər ölkələrdə geniş istifadə olunan alman mütəxəssisi Katarina Schroth tərəfindən hazırlanmış Schroth üsulu ilə müalicədir. Bu müalicə metodunda 3D idman hərəkətlərindən, xüsusi tənəffüs texnikasından istifadə edilir.

Müalicədən əvvəl həkimlər hərtərəfli müayinələr aparır, müasir diaqnostik avadanlıqların köməyi ilə pasiyentin xəstəliyinin düzgün diaqnozu və qiymətləndirilməsi qısa bir müddətdə həyata keçirilir. Müalicə prosedurları pasiyentləri ağrılardan xilas etməklə yanaşı, ağrıya səbəb olan amilləri də aradan qaldırır. Cərrahi müdaxilə tələb edən xəstəliklərdə ağrıkəsicilərə ehtiyac azalır, hərəkətlilik artır, terapevtik yaxşılaşma müşahidə olunur, hərəkət pozğunluqları, əzələ və sümük zəifliyi, insult sonrası pozğunluqlar və beyin zədələri fiziki müalicə ilə aradan qaldırılır.

Mərkəzi Gömrük Hospitalının Fizioterapiya şöbəsində aparılan müalicələr klinik protokollara uyğun kompleks şəkildə, müasir fizioterapiyanın ən yeni metodları vasitəsi ilə həyata keçirilir.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakcell" "INMerge" İnnovasiya Sammitinin tərəfdaşıdır!

İnnovasiya və sürət lideri "Bakcell" regionun ən böyük innovasiya sammiti olan "INMerge" İnnovasiya Sammitinin tərəfdaşıdır. Bu tərəfdaşlıq sayəsində "Bakcell" Azərbaycanda tətbiq etdiyi innovativ texnologiyaları və süni intellekt əsaslı həlləri təqdim edəcək.

"Bakcell"in baş icraçı direktoru Klaus Müller "INMerge" İnnovasiya Sammitində çıxış edəcək.

Sammitdə ölkənin və dünyanın aparıcı şirkətlərinin rəhbər və nümayəndələri, investorlar, yerli və xarici startapların iştirakı ilə təqdimatlar, panel müzakirələri, təqdimatlar və müxtəlif seminarlar keçiriləcək.




Oktyabrın 10-11-i tarixlərində baş tutacaq "INMerge" İnnovasiya Sammitinin məqsədi innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# "Bakcell" "INMerge" İnnovasiya Sammiti ərəfəsində jurnalistlər üçün təlim təşkil edib




İnnovasiya və sürət lideri "Bakcell" media nümayəndələri üçün "Media İnnovasiya Günü" adlı təlim təşkil edib. Tədbirə ölkənin aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalist qatılıb. Təlimdə süni intellektin tətbiqi, innovasiya, brend inkişafı, ekosistemlər, yeni texnologiyalar və innovativ həllər mövzusunda təqdimatlar və interaktiv sessiyalar keçirilib.

Tədbir zamanı, həmçinin jurnalistlərin süni intellekt, yüksək texnologiyalar və innovasiyalarla bağlı sualları cavablandırılıb, bu mövzularda müzakirələr aparılıb. Proqram intelektual oyunlar və əyləncə bölümü ilə davam edib. Qeyd edək ki, "Bakcell" 2015-ci ildən etibarən hər il davamlı olaraq media nümayəndələri üçün innovasiya və texnologiyalara dair təlimlər təşkil edir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500